# Müşfiq Abbasov




**İKİNCİ NƏŞR**

QANUN NƏŞRİYYATI

“- 4” romanı uzun illər prokurorluq orqanlarında mühüm işlər üzrə baş müstəntiq kimi çalışan detektiv yazıçı Müşfiq Abbasovun ilk əsəridir.

Müəllifin araşdırdığı cinayət hadisələri, üstünü açdığı qətllərin təcrübəsindən ərsəyə gələn  əsərdə məharətlə ört-basdır edilən mürəkkəb bir cinayət işinin istintaqından bəhs olunur.

Əsərin qəhrəmanı yüksək məntiq və intuisiyaya sahib Yusif Axundovun simasında prokurorluq orqanları əməkdaşlarının mürəkkəb, şərəfli və təhlükəli işindən, qarşılaşdıqları çətinliklərdən söz açılıb.

Ən önəmlisi isə onların cinayət törədən qatillə yanaşı vəzifə səlahiyyətlərindən yararlanıb məsləyinə xəyanət edən, cinayətkara havadarlıq edən həmkarları ilə mübarizəsi ön plana çəkilib.

Müşfiq Abbasovun bu əsərinin Azərbaycan milli detektivində özünəməxsus üslubu və mövqeyi ilə fərqlənəcəyinə, klassik detektivin maraqlı nümunəsi kimi birnəfəsə oxunub oxucu auditoriyasının qəlbini fəth edəcəyinə əminik.

# Müəllifdən

Həyatda bir yol var, həqiqətlə yaşayıb haqqı nahaqqa verməmək, məzlumun, zəifin yanında olub ədalət hissini itirməmək. Lakin bu, heç də hamıya müyəssər olmur. Bəzən insanlar marağını hər şeydən üstün tutur, sənətinə, məsləyinə xəyanət edir, tamahkarlığı, var-dövlət hərisliyi üzündən həqiqətə göz yumur, haqq yolundan sapır.

Bəzən də baş verən hadisələr, düşdüyü vəziyyət insanı doğru yoldan azdırır, yanlış səmtə yönəldir. Amma vicdanlı insan tutduğu yolun səhv olduğunu anlayır və hər vəchlə bunu təlafə etməyə cəhd göstərir. Səhv eləmək insana xasdır. Amma bizi insan edən səhvlərlə yaşamaq yox, onlardan nəticə çıxarmaq, doğrunu tapmaqdır.

Oxuyacağınız bu detektiv roman mənim ilk əsərimdir və real hadisələr əsasında yazılıb. Burada yalnız ad və soyadlar dəyişdirilib, baş verənlər bədii çalarlarla verilib. Təsvir olunan hadisələr müxtəlif dövrlərdə və məkanlarda cərəyan edir. Əsərin qəhrəmanı müəmmalı qətlin istintaqını aparan prokurorluğun müstəntiqi Yusif Axundovun zəncirvarı düyünləri açmaq bacarığı romanın ana xəttini təşkil edir.

Qətlə yetirilən Seymur Məmmədovun qatilinin axtarışı müstəntiq Axundovu cinayətkarın himayədarları ilə üz-üzə gətirir və onun çox çətinliklə mübarizə aparacağı iki cəbhədə savaş başlayır.

Bu yolda o, böhtan, hədə-qorxu və şantajla üz-üzə gəlir. Təəssüf doğuran odur ki, cinayətkarı müdafiə edən şəxslərin əli müstəntiq Yusifin məslək yoldaşlarınadək uzanır, onlar hər vasitəylə qatili müdafiə edirlər. Romanda hüquq-mühafizə orqanlarında çalışan cinayətkar qruplaşmaların, riyakarların tutduğu vəzifəyə, daşıdığı rütbəyə xəyanəti və onların bu əməllərinin aşkara çıxarılması öz əksini tapıb.

Əsərin qəhrəmanı peşəkarlığı ilə uzun müddət bağlı qalmış qətlin üstünü açmaqla yanaşı, qatilin bütün havadarlarının da layiq olduğu cəzanı almalarına nail olur.

Müstəntiq Yusif Axundovun apardığı istintaq hərəkətləri Azərbaycan Respublikası Cinayət Prosessual Qanunvericiliyinin tələbləri çərçivəsində olmaqla yanaşı, onların icrası, istintaq taktikası, ekspertizaların keçirilməsi, dindirmələr, hadisə yerinə baxış və s. prosedurlar maraqlı, anlaşılan dildə göstərilib.

Ümid edirəm ki, bu roman hüquqşünaslar və hüquq fakültəsinin tələbələri ilə yanaşı, geniş oxucu auditoriyası tərəfindən də maraqla qarşılanacaq.



*"- 4" detektiv romanını*
*Azərbaycan Respublikasının mərhum*
*baş prokuroru, 1991-ci ildə Qarakənd*
*faciəsində həlak olmuş İsmət Qayıbovun*
*əziz xatirəsinə ithaf edirəm.*